İPƏK YOLU, No.4, 2019, səh.72-79

# AZƏRBAYCANDA SAHİBKARLIQ FƏALİYYƏTİNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİ VƏ İQTİSADİ İNKİŞAFIN PROQNOZ MODELİ

**Qəzənfər Süleymanov, Samirə Əlifova**

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Bakı, Azərbaycan
e-mail: samira_alif@mail.ru

**Xülasə.** Tədqiqatın məqsədi Azərbaycanda iqtisadi fəaliyyət sahələrində sahibkarlıq subyektlərinin inkişafı üçün proqnoz modelini işləyib hazırlamaqdır. Bu məqsədlə, dövlətin təsərrüfat subyektlərinin sahibkarlıq fəaliyyətində və sahibkarlığın ölkə iqtisadiyyatında rolu araşdırılır.

**Açar sözlər**: sahibkarlıq, iqtisadi inkişaf, iqtisadi fəaliyyət, dövlət, müəssisə.

**STATE REGULATION OF ENTREPRENEURSHIP IN AZERBAIJAN AND FORECAST MODEL OF THE ECONOMIC DEVELOPMENT**

**G. Suleymanov, S. Alifova**
*Azerbaijan State Oil and Industry University, Baku, Azerbaijan*

**Abstract.** The purpose of the research is to develop a forecasting model for the development of entrepreneurship subjects in Azerbaijan. For this purpose, the role of entrepreneurship in the economic activity of the state and the role of entrepreneurship in the country's economy are investigated.
**Keywords:** entrepreneurship, economic development, economic activity, state, enterprise.

**ГОСУДАРСТВЕННОЕ РЕГУЛИРОВАНИЕ ПРЕДПРИНИМАТЕЛЬСТВА В АЗЕРБАЙДЖАНЕ И ПРОГНОЗНАЯ МОДЕЛЬ ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ**

**Г. Сулейманов, С. Алифова**
*Азербайджанский Государственный Университет Нефти и Промышленности, Баку, Азербайджан*

**Резюме.** Целью исследования является разработка прогнозной модели для развития субъектов предпринимательства в сферах экономической деятельности в Азербайджане. С этой целью исследуется роль предпринимательства в экономической деятельности государства и роль предпринимательства в экономике страны.
**Ключевые слова:** предпринимательство, экономическое развитие, хозяйственная деятельность, государство, предприятие.

## 1. Giriş

Sahibkarlıq fəaliyyəti birbaşa şəxsi mənafelərlə əlaqədar olduğu üçün sahibkarlığın inkişaf istiqamətləri və miqyasları bir sıra hallarda cəmiyyətin mənafeyi ilə üst-üstə düşmür və nəticədə bu inkişaf cəmiyyətin qarşısında duran sosial-iqtisadi problemlərin həllinə kömək etmək, onu asanlaşdırmaq əvəzinə, çətinləşdirir və yeni problemlər doğurur. Buna görə dövlət sahibkarlığın inkişafının laqeyd müşahidəçisi ola bilməz, bu inkişafa fəal təsir göstərən tənzimləyici tədbirlər həyata keçirilməlidir. Bazar iqtisadiyyatı ölkələrində sahibkarlıq fəaliyyətinin tənzimlənməsi həm inzibati, həm də iqtisadi metodlarla həyata keçirilsə də, üstünlük iqtisadi metodlara verilir. Bazar iqtisadiyyatında rəqabət iqtisadi inkişafın hərəkətverici qüvvəsi olsa da, ayrı-ayrı təsərrüfat subyektlərinin bazarda üstünlük əldə etmək üçün inhisarçılığa və sivil rəqabət normalarından yayınmağa meyli güclü olur. Eyni zamanda dövlət, sahə, yerli, patent-lisenziya inhisarçılığı halları da mövcuddur. Bütün bunlar

sahibkarlığın inkişafına əhəməyyətli təsir göstərdiyi üçün dövlət tərəfindən tənzimlənir. Bu tənzimlənmənin məqsədi bütün sahibkarlıq subyektləri üçün bazarda bərabər şərait yaratmaqla cəmiyyətin sosial-iqtisadi tərəqqisini sürətləndirməkdir.

## 2. Dövlətin sahibkarlıq subyektlərinin fəaliyyətində rolu

Dövlətin sahibkarlıq subyektlərinin fəaliyyətinə müdaxiləsi aşağıdakı məqamlarla şərtlənmişdir: iqtisadi fəaliyyət sferasının subyektlərinin seçim azadlığı ilə yaranan ekoloji fəlakətlərin qarşısının alınması və ekoloji problemlərin həlli; sahibkarlıq münasibətlərinin kriminallaşdırılması ilə mübarizə; iqtisadi böhranların, sosial sarsıntıların qarşısının alınması; ümummilli resursların istifadəsinə nəzarət; daha aztəminatlı əhali təbəqələrinin sosial müdafiəsi.

Ölkə iqtisadiyyatının davamlı və dayanıqlı iqtisadi inkişafının təmin olunması sahibkarlıq subyektlərinin maliyyə təminatından, yəni onun maliyyə resurslarının səmərəli təşkili və idarə edilməsindən bilavasitə asılıdır. Bu isə sahibkarlıq subyektlərinin yeni maliyyə təminatı mənbələrinin formalaşdırılmasını zəruri edir. Sahibkarlıq subyektlərinin maliyyə resurslarının səmərəli təşkili iqtisadiyyatın və onun ayrı-ayrı sektorlarının davamlı inkişafinda mühüm rol oynayır.

Kiçik və orta sahibkarlığa dövlət köməyinin əsas istiqamətləri sahibkarlığa köməyin normativ-hüquqi bazasının formalaşdırılmasından, sahibkarlığa maliyyə-kredit və investisiya, sahibkarlıq fəaliyyətinin təşəkkülü, informasiya, elmi-metodik və kadr təminatına, xarici iqtisadi fəaliyyətinə köməkdən və s.-dən ibarətdir. Sahibkarlığa kömək sistemində istehsalat şəraitinin yaradılmasına, kiçik sahibkarlığın sosial müdafiəsinin və təhlükəsizliyinin təmin olunmasına, sahibkar-lığın inkişafı üçün əlverişli ictimai rəyin formalaşmasına, sahibkarlığın ictimai təşkilatlarının və özünəkömək sisteminin yaradılmasına, iri müəssisələrlə kiçik müəssisələrin koorperasiya əlaqələrinin yaradılmasına kömək məsələləri və s. özünəməxsus yer tutur.

## 3. Sahibkarlıq fəaliyyətinin dövlət təznimlənməsinin iqtisadi aspektləri

Sahibkarlıq fəaliyyətinin dövlət təznimlənməsinin məqsədi bütövlükdə iqtisadiyyatın normal fəaliyyətini və ölkə sahibkarlarının əməyin beynəlxalq bölgüsündə stabil iştirakını və bundan maksimal mənfəətin əldə etməsini təmin edən müəyyən şəraitin yaradılmasından ibarətdir. İstənilən ölkənin hökuməti hər bir konkret mərhələdə özünün məqsədlərinə malikdir və öz ölkəsində, həm də dünya təsərrüfatında formalaşan iqtisadi situasiyaya uyğun olaraq müxtəlif əlverişli metod və vasitələrlə onların həllinə nail olur. Buna görə də dövlət tənzimlənməsinin məqsəd və vəzifələri dəyişikliklərə məruz qalır, bundan əlavə, hər bir ayrıca götürülmüş ölkədə özünəməxsus xüsusiyyətlərə malik olmasına baxmayaraq, tənzimləmə mexanizmi kimi o kifayət qədər yaxşı öyrənilmişdir.

Sahibkarlıq fəaliyyətinin inkişafı üçün 1991-ci ildə Azərbaycan Respublikası öz dövlət müstəqilliyini elan etdikdən sonra ölkənin müstəqillik əldə etməsinin davamı olaraq yeni

iqtisadi münasibətlərə keçid, özəl sektorun yaradılması və inkişaf etdirilməsi, bu səbəbdən də ona əlverişli maliyyə dəstəyi verə biləcək milli maliyyə qurumlarının yaradılması zərurətinin əsas vəzifələrdən biri kimi qarşıya çıxdığı bir zamanda - 12 oktyabr 1992-ci ildə "Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun Əsasnamə"sinin təsdiq edilməsi ilə sahibkarlığa, o cümlədən kiçik və orta biznesə dövlət büdcəsinin vəsaiti hesabına güzəştli kreditlər verəcək ilk maliyyə qurumunun əsası qoyulmuş və 2002-ci il 27 avqust tarixli, 779 nömrəli Fərman ilə "Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondu haqqında Əsasnamə"nin və "Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun vəsaitinin istifadəsi Qaydaları"nın təsdiq edilməsi Sahibkarlığa Kömək Milli Fondunun fəaliyyəti və sahibkarlıq subyektlərinin investisiya layihələrinin güzəştli şərtlərlə maliyyələşdirilməsi mexanizminin yenidən qurulması bu maliyyə qurumunun inkişafında dönüş nöqtəsi olmuşdur.

Dövlət proqramlarının icra olunduğu 10 il ərzində ümumi daxili məhsul 3,2 dəfə, o cümlədən qeyri-neft sektoru 2,6 dəfə, sənaye 2,7 dəfə, kənd təsərrüfatı 1,5 dəfə, investisiyalar 6,5 dəfə, əhalinin gəlirləri 6,5 dəfə, orta aylıq əmək haqqı 5,5 dəfə artmışdır.

Bu müddətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 900 mini daimi olmaqla 1,2 milyondan çox yeni iş yeri, 55,6 min müəssisə yaradılmış, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,3 faizə enmişdir. Dövlət proqramları çərçivəsində görülmüş genişmiqyaslı işlər regionların qarşıdakı illərdə də inkişafı üçün möhkəm zəmin yaratmışdır.

## 4. İqtisadi fəaliyyət sahələri ilə sahibkarlıq subyektləri arasında əlaqələrin proqnoz modeli

İqtisadi fəaliyyət sahələrinin artması ölkə iqtisadiyyatının kompleks şəkildə inkişafına gətirib çıxarar. Bu məqsədlə biz bütün tədqiqat işlərinə və beynəlxalq təcrübələrə əsaslanaraq respublika iqtisadiyyatında sahibkarlıq subyektlərinin fəaliyyəti ilə iqtisadi fəaliyyət sahələri arasında qarşılıqlı proqnoz modelinin qurulmasını araşdıraq. Aşağıda göstərilmiş cədvəl 1-ə əsasən sahibkarlıq subyektlərinin fəaliyyəti ilə iqtisadi fəaliyyət sahələri dəyişmə dinamikasından istifadə edərək iqtisadi fəaliyyət sahələri strategiyasının proqnoz modelini quraq.

Əgər ekstropolyasiya metodundan istifadə etsək, iqtisadi fəaliyyət sahələri üzrə sahibkarlıq subyektlərinin istehsal etdiyi məhsulun həcmi ilə onun alt sahələri arasında korrelyasıya asılığı aşağıdakı reqresiya tənliyi şəklində olar:

$$Y= a_0 * X_1^{a1} * X_2^{a2} * X_3^{a3} * X_4^{a4} * X_5^{a5} * X_6^{a6}, \quad (1)$$

burada, Y- iqtisadi fəaliyyət sahələri üzrə sahibkarlıq subyektlərinin istehsal etdiyi məhsulun cəmi həcmi; $X_1$- kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələri üzrə sahibkarlıq subyektlərinin istehsal etdiyi məhsulun həcmi; $X_2$- sənaye sahələri üzrə sahibkarlıq subyektlərinin istehsal etdiyi məhsulun həcmi; $X_3$- tikinti sahələri üzrə sahibkarlıq subyektlərinin istehsal ediyi məhsulun həcmi; $X_4$- nəqliyyat və anbar təsərrüfat üzrə sahibkarlıq subyektlərinin istehsal etdiyi məhsulun həcmi; $X_5$- informasiya və rabitə sahələri

üzrə sahibkarlıq subyektlərinin istehsal etdiyi məhsulun həcmi; $X_6$- digər sahələr üzrə sahibkarlıq subyektlərinin istehsal etdiyi məhsulun həcmi ; $a_i$ (i= 0,6)- reqresiya əmsallarıdır.

**Cədvəl 1.** İqtisadi fəaliyyət sahələri üzrə sahibkarlıq subyektlərinin istehsal etdiyi məhsulun həcmi (min manat)

| İstiqamətlər | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|
| İqtisadiyyatın bütün sahələri üzrə istehsal olunan məhsulun həcmi - cəmi (y) | 223547 | 248288 | 165277 | 186898 | 183271 | 187598 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq (x1) | 3897 | 3973 | 3997 | 3410 | 3193 | 3340 |
| Sənaye (x2) | 4457 | 4326 | 5173 | 6418 | 4551 | 6152 |
| Tikinti (x3) | 1501 | 1755 | 1936 | 2335 | 2340 | 2422 |
| Nəqliyyat və anbar təsərrüfatı (x4) | 22627 | 25093 | 27862 | 28178 | 28443 | 28706 |
| İnformasiya və rabitə (x5) | 242 | 311 | 354 | 455 | 491 | 569 |
| Digər sahələr (x6) | 25065 | 25199 | 27561 | 39568 | 31221 | 26496 |

*Mənbə: Azərbaycanın statistik göstəricilərinə (Bakı 2017) əsasən müəllif tərəfindən tərtib olunub.*

Reqressiya modelinin alqoritmindən istifadə etməklə aşağıdakı reqressiya əmsalları tapılmışdır:

$a_0$ =27,6; $a_1$ =3,7; $a_2$ =0,9; $a_3$ =2,7 $a_4$ =7,4; $a_5$= 1,1; $a_6$= 0,04.

$R^2$ =0,99, SX=0,01

Bu əmsalları (1)-də yerinə yazsaq, aşağdakı reqressiya tənliyinii alarıq.

$$Y= 27,6*X_1^{3,7}*X_2^{0,9}*X_3^{2,7}*X_4^{7,4}*X_5^{1,1}*X_6^{0,04}, \quad (2)$$

(2) tənliyi aşağıdakı mülahizələri söyləməyə əsas verir:

1. Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələri üzrə sahibkarlıq subyektlərinin istehsal etdiyi məhsulun həcminin 1 vahid artması iqtisadi fəaliyyət sahələri üzrə sahibkarlıq subyektlərinin istehsal etdiyi cəmi məhsulun həcminin 3,7 vahid artmasına gətirib çıxarar.
2. Sənaye sahələri üzrə sahibkarlıq subyektlərinin istehsal etdiyi məhsulun həcminin 1 vahid artması iqtisadi fəaliyyət sahələri üzrə sahibkarlıq subyektlərinin istehsal etdiyi məhsulun cəmi həcminin 0,9 vahid artmasına gətirib çıxarar.
3. Tikinti sahələri üzrə sahibkarlıq subyektlərinin istehsal etdiyi məhsulun həcminin 1 vahid artması iqtisadi fəaliyyət sahələri üzrə sahibkarlıq subyektlərinin istehsal etdiyi məhsulun cəmi həcminin 2,7 vahid artmasına gətirib çıxarar.
4. Nəqliyyat və anbar təsərrüfatı sahələri üzrə sahibkarlıq subyektlərinin istehsal etdiyi məhsulun həcminin 1 vahid artması iqtisadi fəaliyyət sahələri üzrə sahibkarlıq subyektlərinin istehsal etdiyi məhsulun cəmi həcminin 7,4 vahid artmasına gətirib çıxarar.

5. İnformasiya və rabitə sahələri üzrə sahibkarlıq subyektlərinin istehsal etdiyi məhsulun həcminin 1 vahid artması iqtisadi fəaliyyət sahələri üzrə sahibkarlıq subyektlərinin istehsal etdiyi məhsulun cəmi həcminin 1,1 vahid artmasına gətirib çıxarır.
6. Digər sahələr üzrə sahibkarlıq subyektlərinin istehsal etdiyi məhsulun həcminin 1 vahid artması iqtisadi fəaliyyət sahələri üzrə sahibkarlıq subyektlərinin istehsal etdiyi məhsulun cəmi həcmininisə 0,04 vahid artmasına gətirib çıxarır.

Qeyd etmək lazımdır ki, (2) modelindəki 27,6 əmsalı (1) modelində nəzərə alınmayan iqtisadi göstəricilərin xüsusi çəkisini göstərir. $R^2$=0,99 determinasiya əmsalı olub, korrelyasiya asılılığını göstərir. SX=0,01-isə statistik xətadır, yəni modelin adekvatlığını göstərir.




**Şəkil 1.** İqtisadi fəaliyyət sahələri ilə sahibkarlıq subyektləri arasında əlaqə
*Mənbə: müəllif tərəfindən tərtib olunub.*

Reqressiya əlaqəsinin qurduqdan sonra bütün bu göstəricilərin korrelyasiya asılılıq dərəcəsini yoxlayaq. Cədvəl 1-ə əsasən korrelyasiya asılılıq dərəcəsini yoxlayaq (cədvəl 2).

**Cədvəl 2.** İqtisadi fəaliyyət sahələri ilə sahibkarlıq subyektləri arasındakorrelyasiya aslılıq səviyyəsi

| Göstəricilər | Əmsallar | Asılılıq dərəcəsi |
|---|---|---|
| $Y – X_1$ | 0.417 | Zəif |
| $Y- X_2$ | -0.566 | Orta əks |
| $Y– X_3$ | -0602 | Orta əks |
| $Y– X_4$ | -0.667 | Orta əks |
| $Y– X_5$ | -0.509 | Orta əks |
| $Y– X_6$ | -0.468 | Zəif əks |
| $X_1 - X_2$ | 0,492 | Zəif |
| $X_1 – X_3$ | 0,856 | Yüksək |
| $X_1 – X_4$ | 0,688 | Orta |
| $X_1 – X_5$ | 0,808 | Yüksək |

| | | |
|---|---|---|
| $X_1 - X_6$ | 0,592 | Orta |
| $X_2 - X_3$ | 0,697 | Orta |
| $X_2 - X_5$ | 0,631 | Orta |
| $X_2 - X_6$ | 0,609 | Orta |
| $X_3 - X_4$ | 0,950 | Yüksək |
| $X_3 - X_5$ | 0,962 | Yüksək |
| $X_3 - X_6$ | 0,630 | Orta |
| $X_4 - X_5$ | 0,951 | Yüksək |
| $X_4 - X_6$ | 0,549 | Orta |
| $X_5 - X_6$ | 0,492 | Zəif |

*Mənbə: Müəllif tərəfindən tərtib olunub.*

Aparılmış təhlilləri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, təklif edilmiş proqnozlaşdırma modeli, nəinki sahibkarlıq subyektlərinin fəaliyyətinin proqnozlaşmasını, eyni zamanda iqtisadiyyatın digər sahələrinin proqnozlaşdırılmasını həyata keçirməyə imkan yaradar.

Bütün bu aparılan araşdırmalardan belə nəticəyə gəlmək olar ki, bazar iqtisa-diyyatı şəraitində sahibkarlığın maliyyə resurslarından səmərəli istifadəsinin təşkili və təmin edilməsiölkə iqtisadiyyatının davamlı və dayanıqlı inkişafının təmina-tında rolu əhəmiyyətli dərəcədədir. Bazar iqtisadiyyatı şəraitində sahibkarlıq fəaliyyəti yüngül və yeyinti sənaye sahələrində milli sahibkarlığın inkişafına əsas zəmin yaratmaqla, bu sahələrin sahə və ərazi quruluşunun təkmilləşməsinə kömək edə bilər.

**Nəticə.** Ölkədə sahibkarlığın inkişafı məqsədilə biznes mühitinin daim yaxşılaşdırıl-ması, bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi, yerli və xarici inves-tisiyaların, müasir texnologiyaların, idarəetmə təcrübəsinin cəlb edilməsi və bu yolla yüksək keyfiyyətli, rəqabət qabiliyyətli məhsulların istehsal edilməsi Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi iqtisadi inkişaf strategiyasının prioritetlərindəndir. Bu sahədə həyata keçirilən dövlət siyasəti növbəti mərhələdə də biznes və sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, dövlət himayəsinin təkmilləşdirilməsinə, dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsinə, bazar iqtisadiyyatının tələblərinə uyğun yeni təsisatların yaradılmasına və onların səmərəli fəaliyyətinin təmin edilməsinə yönəldiləcəkdir.

Ölkəmizdə sahibkarlıq subyektlərinin qeydiyyatı sitemi "bir pəncərə" prinsipi ilə həyata keçirilir. “Bir pəncərə” sistemi elektron hökumətin əsas elementlərindən hesab edilir. Bu zaman məlumatların bir mərkəzdə cəmləşdirilməsi və eləcə də bütün inzibati qeydiyyatların (vergi qeydiyyatı da daxil olmaqla) tamamilə sinxronlaşdırılması nəzərdə tutulur. Bu zaman iş adamlarının mərkəzi sistem ilə avtomatik, on-layn və davamlı əlaqəsi yaranır. Faktiki olaraq bu lisenziyaların mərkəzləşdirmiş qaydada və elektron şəkildə təqdim edilməsi deməkdir. Bu zaman təbii ki, qeydiyyat üçün lazım olan proseduraların sayı azalır və biznes strukturları elektron qeydiyyat sistemindən faydalanaraq həmçinin vaxt itkisinin də qarşısını alırlar. Belə ki, ölkədə sahibkarlığın inkişafının sürətləndirilməsi, biznes mühitinin əlverişliliyinin daha da artırılması və biznesə başlama prosedurlarının sadələşdirilməsi üçün

zəruri tədbirlərin görülməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti "Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin "bir pəncərə" prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında" 2007-ci il 25 oktyabr tarixli Sərəncam imzalamışdır. Sərəncama əsasən, "bir pəncərə" prinsipi üzrə vahid dövlət qeydiyyat orqanı Azərbaycan Respublikasının Vergilər Nazirliyi müəyyən edilmiş və 2008-ci ilin 1 yanvar tarixindən Azərbaycanda bu sistemin tətbiqinə başlanmışdır. "Bir pəncərə" sisteminin tətbiqindən sonra Azərbaycanda biznesə başlama prosedurаları 15-dən 1-ə və bunun üçün sərf olunan vaxt 30 gündən 3 günə endirilmişdir.Azərbaycan Respublikası sərhədlərində 01.01.2009-cu il tarixdən "Bir pencərə" prinsipi tətbiq olunur. Bu prinsipə görə Sanitar, Fitosanitariya və Nəqliyyat müfəttişliyinin sərhədlərdəki funksiyaları Gömrük nəzarəti orqanlarına həvalə edilib.

Belə ki, 2014-2016-ci il üzrə hüquqi şəxslərin sayı 79 minə yaxınlaşmış, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin sayı 432 mini ötüb keçmişdir. Belə ki, sahibkarlıq subyektlərinin sayı 2015-ci ildə 677231, 2016-cı ildə isə 715585 olmuşdur ki, bunlardan 2015-ci ildə 183271, 2016-cı ildə isə 187598 nəfəri kiçik sahibkarlıq subyektləri olmuşdur. Son illər kiçik sahibkarlıq müəssisələrində işləyən muzdlu işçilərin sayı isə 1,4 % artmışdır. Yaradılmış əlavə dəyərdə isə 20% artım olmuş və ümumi əlavə dəyər 1620,0 milyon manat təşkil etmişdir.

İqtisadi tənzimləmə üsullarının tətbiqi sahəsində dövlət sahibkar maraqlarının cəmiyyət maraqları baxımından vahid müstəviyə gətirilməsini təmin edən tarazlı vergi, gömrük, qiymət, kredit, sığorta siyasəti həyata keçirməlidir. Bununla yanaşı, müasir texnologiyalardan istifadə edilməklə, idarəetmə təcrübəsinin tətbiq edilməsi və bu işə sahibkar cəlb edilməklə yüksək-keyfiyyətli, rəqabətqabiliyyətli məhsul istehsalının genişləndirilməsində mühüm əhəmiyyətə malikdir.

Məqalədə ölkədə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayı ilə ayrı-ayrı iqtisadi fəaliyyət sahələrində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayı arasında korrelyasiya əlaqələrinin proqnoz modeli təklif edilmiş və onun strateji istiqamətləri təklif edilmişdir. Fikrimizcə, sahibkarlığın fəaliyyət göstərməsi və inkişaf etməsi üçün əlverişli şəraitin yaradılması hər bir ölkənin iqtisadi artımının sürətlənməsinə imkan yaradır. Sahibkarlığın inkişafı dövlətin iqtisadi və sosial səviyyəsinin ən dəqiq göstəricilərindən hesab olunur.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının Konstitusiyası, 26 sentyabr, 2016-cı il.
2. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi (Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmişdir).
3. Azərbaycan sənayesi. Statistik toplu, Bakı: MSİ, 2009, 580 səh. və 2011, 280 s.

4. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2017. Azərbaycanın Statistik Göstəriciləri 2017, Bakı, 2017. 824 səh.
5. Alıyev İ.H , Əhmədov S. (2010), İqtisadiyyat hamı üçün, Bakı: Avropa, 404 s.
6. Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin «Bir pəncərə» prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Bakı, 25 oktyabr 2007.
7. www.economy.gov.az